**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

**Əlyazması hüququnda**

**NÜŞABƏ NƏRİMAN qızı SEYFULLAYEVA**

# BƏSTƏKAR TELMAN HACIYEV YARADICILIĞI MİLLİ ƏNƏNƏLƏR KONTEKSTİNDƏ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsində yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Sevda Firuddin qızı Qurbanəliyeva**<br>Azərbaycan Respublikasının<br>Əməkdar müəllimi, sənətşünaslıq üzrə<br>elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Aytac Elxan qızı Rəhimova**<br>sənətşünaslıq üzrə elmlər doktoru, dosent |
| | **Ellada Əlihüseyn qızı Hüseynova**<br>Azərbaycan Respublikasının<br>Əməkdar Mədəniyyət işçisi,<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Pedaqoji Universitetinin**<br>**"Musiqi və onun tədrisi metodikası" kafedrası** |

Müdafiə 14 dekabr 2018-ci ildə saat 14:00-da Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___ noyabr 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.MƏMMƏDOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Görkəmli Azərbaycan bəstəkarı, respublikanın əməkdar incəsənət xadimi Telman Hacı oğlu Hacıyev öz yaradıcılığı ilə Azərbaycan musiqi mədəniyyətində özünəməxsus yer tutur. Bəstəkarın tanınmış musiqiçilər tərəfindən ifa edilən əsərləri xarici ölkələrdə də rəğbət qazanıb, dəfələrlə nəşr olunub.

Müasir müstəqil Azərbaycan Respublikasında milli musiqi irsimizin qorunması və dünya miqyasında təbliği baxımından Azərbaycan bəstəkarlarının yaradıcılığının tədqiq edilməsi aktuallıq kəsb edir. Bu sahədə musiqişünaslıqda mühüm işlər görülüb, bəstəkarlarımızın yaradıcılığı müxtəlif aspektlərdən öyrənilib. Lakin bütün bunlara baxmayaraq, hələ də bu sahədə müəyyən boşluqlar mövcuddur. Bu baxımdan Telman Hacıyevin yaradıcılığına müraciət mövzunun aktuallığını şərtləndirir.

T.Hacıyevin yaradıcılıq yolunun nəzərdən keçirilməsi, onun musiqi irsinin janr və mövzu baxımından xarakterizə olunması bəstəkarın yaradıcılığının çoxşaxəliliyini üzə çıxarmaqla yanaşı, musiqi dilinin zənginliyini və milli qaynaqlarını da açıqlamağa imkan verir.

T.Hacıyevin yaradıcılıq mövqeyinin əsasını xalq və klassik musiqiyə arxalanması, müasir musiqi dili, professionallıq və yeni yollar axtarışında olması təşkil edir. Bəstəkarın musiqi folkloruna dərindən bələd olması əsərlərinin milli xarakterində özünü aydın göstərir, əsərlərin forma bitkinliyini məzmun keyfiyyəti tamamlayır. Xalq musiqisi ilə bəstəkar üslubunun ən yeni prinsiplərinin üzvi əlaqəsi T.Hacıyevin əsərlərinə xüsusi məna və inandırıcılıq gətirir.

T.Hacıyev daim yaradıcılıq axtarışında olan bir bəstəkar kimi öz musiqisinin obraz quruluşunu müasir məzmunla, müasir insanın hiss və fikirlərilə zənginləşdirməklə, yaratdığı əsərlərdə reallığın müxtəlif cəhətlərini əks etdirməyə çalışmışdır. Bu da onun həyatsevərliyi, parlaqlığı ilə seçilən musiqisinin obrazlı-emosional quruluşu ilə vəhdət təşkil edir.

T.Hacıyevin yaradıcılığının araşdırılması olduqca maraqlıdır, bu zaman bəstəkarın əsərlərinin janr xüsusiyyətləri, musiqi dilinin özünəməxsus cəhətləri üzə çıxır. T.Hacıyevin yaradıcılığının mövzusu, üslubu və s. bu kimi səciyyəvi cəhətlərin öyrənilməsi vacib məsələlərdəndir.

Qeyd etmək lazımdır ki, T.Hacıyevin yaradıcılığı indiyə kimi bütövlükdə araşdırılmamışdır, üslub xüsusiyyətlərini əhatə edən geniş tədqiqatlar aparılmamışdır. Bəstəkarın musiqi dili, yaradıcılıq üslubunun xüsusiyyət-

ləri haqqında elmi-tədqiqat işinə böyük ehtiyac vardır. Seçilən mövzunun aktuallığı da məhz bununla izah olunur.

**Mövzunun işlənmə səviyyəsi.** Azərbaycan musiqişünaslığında bəstəkar T.Hacıyevin yaradıcılığı çox az öyrənilmişdir. Bu sahədə yeganə tədqiqat əsəri olaraq, sənətşünaslıq doktoru, professor İmruz Əfəndiyevanın rus dilində yazılmış "Telman Hacıyev" adlı kitabçasını qeyd edə bilərik (Bakı, "İşıq", 1983). T.Hacıyevin həyat və yaradıcılığına həsr olunmuş tədqiqat əsəri kimi çox dəyərli bir mənbə olan bu nəşrdə bəstəkarın yaradıcılıq yolu, yaratığı əsərlər haqqında məlumat verilmiş, onların səciyyəvi xüsusiyyətləri göstərilmişdir.

Azərbaycan musiqişünaslığında ayrı-ayrı musiqi janrlarının öyrənilməsi sahəsində aparılan tədqiqatlarda da T.Hacıyevin əsərləri haqqında müəyyən fikirlər söylənilmişdir. Bu baxımdan İ.Əfəndiyevanın "Azərbaycan sovet mahnısı" ("Азербайджанская советская песня", Bakı, 1983) tədqiqat əsərində mahnı janrının inkişaf mərhələlərinin və Azərbaycan bəstəkarlarının mahnılarının əsas xüsusiyyətlərinin araşdırılması prosesində digər bəstəkarlarla yanaşı, T.Hacıyevin də mahnıları qeyd edilir.

Sənətşünaslıq üzrə elmlər doktoru, professor Ceyran Mahmudovanın "Mahnının qoşa qanadı – poeziya və musiqi" (Bakı, 2013) monoqrafiyasında milli mahnı janrının inkişafında böyük xidmətləri olan bəstəkarların vokal əsərlərində poeziya ilə musiqinin qarşılıqlı əlaqələri baxımından Telman Hacıyevin də mahnılarının mətn xüsusiyyətləri təhlil olunmuşdur.

Sənətşünaslıq doktoru, professor Tərlan Seyidovun "Azərbaycanda fortepiano musiqisi janrlarının inkişafı" (Bakı, 1992), "XX əsr Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkar yaradıcılığı" (Bakı, 2006) monoqrafiyalarında T.Hacıyevin fortepiano əsərləri Azərbaycan fortepiano musiqisinin ümumi inkişafı mənzərəsində nəzərdən keçirilmişdir.

T.Hacıyevin yaradıcılığı haqqında çap olunmuş az saylı məqalələr, oçerklər, populyar xarakterli bələdçi kitabçaları, dövri mətbuatda bəstəkarın yaradıcılığının müəyyən səhifələrini işıqlandıran yazılar kütləvi oxucu üçün nəzərdə tutulmuşdur.

Tədqiqat prosesində bəstəkarın ailəsi tərəfindən qorunub-saxlanılan əsərlərinin əlyazmalarına və bir sıra arxiv materiallarına müraciət olunmuşdur. Həmin materiallar tədqiqat üçün çox vacib məlumat mənbəyi olmuşdur.

Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, musiqişünaslıqda Telman Hacıyevin yaradıcılığı bir qədər diqqətdən kənarda qalmışdır və bəstəkarın yaradıcılığının fərdi xüsusiyyətlərinin elmi ümumiləşdirilməsi ilə bağlı boşluqlar vardır. Bu səbəbdən biz Telman Hacıyevin yaradıcılığına müraciət

edərək, onun əsərlərinin səciyyəvi cəhətlərini milli xüsusiyyətlər kontekstində tədqiq etmişik.

**Dissertasiyanın elmi yeniliyi.** Milli musiqişünaslıqda ilk dəfə olaraq, bəstəkar Telman Hacıyevin yaradıcılığı dissertasiya səviyyəsində tədqiq olunmuşdur. Hazırkı işdə Azərbaycan musiqi mədəniyyətində T.Hacıyevin yaradıcılığının əhəmiyyətli rolunun tədqiqi həyata keçirilmişdir. Telman Hacıyevin yaradıcılığı hərtərəfli araşdırılmış, vokal, instrumental və səhnə əsərlərinin tam nəzəri təhlili verilmişdir:

– dissertasiyada, həmçinin ilk dəfə olaraq, T.Hacıyevin yaradıcılığının mövzu dairəsi, janr xüsusiyyətləri, musiqi dili və üslub xüsusiyyətləri araşdırılmışdır;

– bəstəkarın əsərlərinin təhlili nəticəsində onun xalq musiqisinə və muğama yaradıcı münasibəti və bunun yaradıcılığına təsiri, musiqi dili ilə bağlı tapıntıları üzə çıxarılmışdır;

– Azərbaycan xalq musiqisindən istifadə prinsiplərinin bəstəkarın musiqi dilinə təsiri nəticəsində musiqi üslubunun milli xüsusiyyətləri - məqam əsası, melodika, intonasiya, harmoniya, ritmika və s. cəhətlər araşdırılmış və bəstəkarın üslubunun formalaşmasında mühüm əhəmiyyəti müəyyən edilmişdir;

– dissertasiyada T.Hacıyevin əsərlərinin bədii keyfiyyətlərinə, yenilik axtarışlarına, xalq musiqisi və muğam ənənələrinə əsaslanan üslub xüsusiyyətlərinin araşdırılmasına xüsusi diqqət yetirilmişdir.

**Dissertasiyanın məqsədi və vəzifələri.** Dissertasiyanın əsas məqsədi bəstəkar Telman Hacıyevin yaradıcılığının öyrənilməsindən və onun musiqi dilinin səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Dissertasiya işində irəli sürülən **vəzifələr**:

– T.Hacıyevin yetişdiyi mədəni mühitin səciyyəvi cəhətlərini araşdırmaq və bəstəkarın yaradıcılığına təsirini göstərmək;

– T.Hacıyevin yaradıcılığının inkişaf mərhələlərini müəyyənləşdirmək;

– Bəstəkarın yaradıcılığının bütün sahələri üzrə əsərlərini tədqiqata cəlb etmək;

– T.Hacıyevin əsərlərini mövzu dairəsi və janr xüsusiyyətləri baxımından araşdırmaq;

– Bəstəkarın əsərlərinin tam nəzəri təhlilini aparmaq, onların musiqi dilini - musiqi forması, məqam əsası, melodika, harmoniya, ritmika və s. cəhətdən araşdırmaq;

– Bəstəkarın özünəməxsus yaradıcılıq xüsusiyyətlərini və dəst-xəttini aşkarlamaq və elmi-nəzəri səviyyədə ümumiləşdirməkdən ibarətdir.

**Tədqiqatın obyektini** Telman Hacıyevin həyat və yaradıcılıq yolunun, yaradıcılıq sahələrinin araşdırılması təşkil edir.

**Tədqiqatın predmeti** Telman Hacıyevin yaradıcılığında müxtəlif janr və formalı instrumental və vokal əsərlərinin musiqi dilinin öyrənilməsindən, yaradıcılıq üslubunun səciyyəvi cəhətlərinin, milli xüsusiyyətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın materialını** T.Hacıyevin müxtəlif illərdə yazılmış və çap olunmuş instrumental və vokal əsərləri, o cümlədən "Bizə bir xal lazımdır" musiqili komediyası, fortepiano üçün Sonata, prelüdlər, skripka və fortepiano üçün Poema, simli kvartet, kamera orkestri üçün Andante və Skertso, çoxsaylı mahnı və romansları təşkil etmişdir.

**Tədqiqatın metod və metodoloji əsası**. Elmi-tədqiqat işinin metodunda müqayisəli təhlil, mənbələrlə aparılan iş üsullarından (notoqrafiya, sənədli və publisistik materiallar cəlb olunmuşdur) istifadə edilib. Metodoloji əsası Azərbaycan və Avropa müəlliflərinin musiqişünaslıq üzrə elmi ədəbiyyatının aprobasiyasından ibarətdir.

Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən tarixi-nəzəri və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Azərbaycan musiqişünaslarının – Üzeyir Hacıbəylinin, Əfrasiyab Bədəlbəylinin, Məmmədsaleh İsmayılovun, Elmira Abasovanın, Gülnaz Abdullazadənin, Solmaz Qasımovanın, Zemfira Qafarovanın, İmruz Əfəndiyevanın, Rəna Məmmədovanın, Tərlan Seyidovun, Ramiz Zöhrabovun, Fərəh Əliyevanın, Cəmilə Həsənovanın, Şəhla Həsənovanın və başqalarının Azərbaycan musiqisinə həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasına çevrilmiş, bu musiqişünasların elmi müddəalarına bir mənbə kimi müraciət edilmişdir.

**Tədqiqatın elmi-təcrübi əhəmiyyəti.** Elmi əsaslara söykənən dissertasiya işinin materiallarından, əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, tədqiqat və mühazirələrdə, seminarlarda, xüsusilə "Azərbaycan musiqi tarixi", "Azərbaycan musiqi ədəbiyyatı" kurslarının tədrisində istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı çıxışlarında, yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, onların daxilində altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Telman Hacıyevin yaradıcılığının səciyyəsi"** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. **1.1. "T.Hacıyevin həyat və yaradıcılıq yolu"**nun öyrənilməsi ilə bağlıdır. Tanınmış Azərbaycan bəstəkarı Telman Hacıyevin həyat və yaradıcılıq yolu 1930-1991-ci illəri əhatə edir. T.Hacıyev yaradıcılığa 1950-ci illərdə başlamış, Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edən 1960-80-ci illər onun yaradıcılığının çiçəklənmə dövrü olmuşdur. T.Hacıyevin yaradıcılığında dövrün qabaqcıl təmayülləri, milli musiqinin əsas xüsusiyyətləri öz əksini tapmışdır. Buna görə də onun yaradıcılığını milli musiqi mədəniyyəti kontekstində nəzərdən keçirərək səciyyələndirməyi məqsədəuyğun hesab edirik.

Dahi Üzeyir Hacıbəylinin tövsiyəsi ilə sənətə qədəm qoyan Telman Hacıyev Azərbaycanın görkəmli bəstəkarları Cövdət Hacıyev və Qara Qarayev məktəbinin yetirməsi olmuş, həmçinin Fikrət Əmirovun böyük təsirini hiss etmiş, bu bəstəkarların yaradıcılıq irsindən və sənətkarlığından bəhrələnmişdir.

Telman Hacıyev 1930-cu il iyun ayının 9-da qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Gəncə şəhərində anadan olmuşdur. Uşaq yaşlarından təsirini hiss etdiyi zəngin mədəni mühit, eşitdiyi musiqi sədaları, iştirakçısı olduğu tədbirlər, xalq bayramları və s. onun qəlbində və yaddaşında dərin iz salmış, musiqi istedadının üzə çıxmasında və gələcək sənət yolunu seçməsində böyük rol oynamışdır. T.Hacıyev ibtidai musiqi təhsilini Gəncədə almış, 1938-ci ildən musiqi məktəbində əvvəlcə skripka, daha sonra fortepiano sinfində məşğul olmuşdur.

1946-cı ildə respublika müsabiqəsində iştirakı T.Hacıyevə uğur gətirdi. Akkordeonda ifa etdiyi əsərlərin üslubunu dərindən dərk etmək bacarığına, ifaçılıq texnikasına məharətlə yiyələndiyini göstərən T.Hacıyev birinci yerə layiq görüldü. Münsiflər heyətinə sədrlik edən Üzeyir Hacıbəyli gənc oğlanın istedadını görərək ona musiqi ilə ciddi məşğul olmağı və təhsilini Bakıda davam etdirməyi tövsiyə edir. Ü.Hacıbəylinin bu tövsiyəsi T.Hacıyevin həyat yolunda və sənət seçimində böyük rol oynayır.

T.Hacıyev həmin ildə Bakı Musiqi Məktəbinin hazırlıq şöbəsinə daxil olur. Lakin ailə vəziyyəti ilə əlaqədar olaraq Gəncəyə qayıdır. Burada o, Gəncə Musiqi Texnikumunda fortepiano ixtisası üzrə aparıcı müəllim, bir neçə musiqiçilər nəsli yetişdirmiş P.A.Xruleviçin sinfində iki il təhsil al-

dıqdan sonra, bəstəkar olmaq arzusu ilə yenidən Bakıya gəlir. Həmin vaxtdan onun həyatı Bakı ilə bağlanır.

T.Hacıyev əvvəlcə Bakı Musiqi Texnikumunda təhsilini davam etdirir. Musiqi ilə ciddi məşğul olan T.Hacıyev musiqi nəzəriyyəsini, bəstəkarlığın nəzəri və təcrübi əsaslarını dərindən mənimsəyərək, iki il ərzində tam təhsil kursunu tamamlamağa müvəffəq olur.

Bu dövrdə görkəmli bəstəkar Fikrət Əmirovun gənc musiqiçinin həyatında, onun sənətə gəlişində əhəmiyyətli rolu olur. F.Əmirovla həmin dövrdən başlayan və bütün ömrü boyu davam edən ünsiyyəti, onun yaratdığı möhtəşəm əsərləri dinləməsi və onlardan bəhrələnməsi T.Hacıyev üçün əsl sənətkarlıq dərslərinə çevrilir.

T.Hacıyev eyni zamanda, görkəmli tarzən və pedaqoq, milli musiqinin mahir bilicisi Mirzə Mansur Mansurovun sinfində Azərbaycan klassik muğamlarının xüsusiyyətlərini öyrənir. T.Hacıyev muğamların incəliklərindən bəhrələnərək, öz musiqi təfəkkürü ilə yaradıcılığında tətbiq etməyə başlayır.

1958-ci ildə T.Hacıyev Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına bəstəkarlıq ixtisası üzrə daxil olur. 2 il professor Cövdət Hacıyevin bəstəkarlıq sinfində, üçüncü kursdan sona kimi professor Qara Qarayevin bəstəkarlıq sinfində təhsil alır. Hər iki sənətkarın T.Hacıyevin sənət taleyində, bəstəkar kimi yetişməsində, sənətin sirlərini mənimsəməsində, yaradıcılıq nailiyyətləri qazanmasında böyük rolu olmuşdur.

Məhz bunun nəticəsidir ki, artıq təhsil illərində o, bir sıra maraqlı əsərlər yazır. T.Hacıyevin tələbəlik illərində yazdığı kamera-instrumental və vokal əsərləri Azərbaycan Bəstəkarlar İttifaqının qurultay və plenumlarında uğurla ifa olunur. Konservatoriyanı bitirərkən diplom işi kimi təqdim etdiyi birhissəli "Fortepiano və simfonik orkestr üçün poema" (1964) bəstəkarın ilk iri həcmli əsəri olur.

T.Hacıyev sənətə gəldiyi vaxtlardan respublikanın musiqi və ictimai həyatında yaxından iştirak etmişdir. Hələ tələbəlik illərində o, Konservatoriyanın gənclər təşkilatına rəhbərlik etmiş, fəal ictimai fəaliyyətini Konservatoriyanı bitirdikdən sonra da davam etdirmişdir.

T.Hacıyev müstəqil həyata və yaradıcılıq yoluna qədəm qoyduqdan sonra musiqi sahəsində müxtəlif vəzifələrdə çalışmışdır. O, bir müddət Azərbaycan Radiosunda musiqi redaksiyasında baş redaktorun müavini işləmiş, Televiziya və Radio Komitəsində musiqi redaksiyasına rəhbərlik etmişdir. T.Hacıyev 1975-ci ildən uzun illər boyu Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblına uğurla rəhbərlik etmişdir. O, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri kimi çalışdığı dövrdə kollektiv

öz repertuarını daim yeniləmiş, Azərbaycanda və xarici ölkələrdə uğurla çıxış etmişdir. Bu konsertlərin təşkilində, musiqi proqramlarının tərtibində ansamblın bədii rəhbəri T.Hacıyevin böyük xidməti olmuşdur. Eyni zamanda, T.Hacıyev yaradıcılıqla da fəal məşğul olaraq, müxtəlif janrlı əsərlər – musiqili-səhnə əsərləri, vokal və instrumental əsərlər bəstələmişdir. Bütün bu əsərlər məzmununa görə çox rəngarəng olub, Azərbaycan musiqi mədəniyyətinin ümumi inkişafı axarında meydana gəlmişdir.

T.Hacıyevin ilkin yaradıcılıq dövründə yazdığı kamera-instrumental əsərlər artıq peşəkarlığı ilə fərqlənir: beş fortepiano prelüdü, fortepiano üçün sonatina, skripka və fortepiano üçün poema, iki simli kvartet, skripka, violonçel və fortepiano üçün triolar. Bu əsərlərdə gənc bəstəkarın formaya əminliklə yiyələnməsi, fərdi yaradıcılıq üslubu aydın hiss olunur.

Telman Hacıyev müxtəlif janrlara müraciət etsə də, onun yaradıcılığının aparıcı sahəsi vokal musiqi olmuşdur. T.Hacıyevin vokal musiqiyə diqqəti və sevgisi bəstəkarın bütün yaradıcılığı boyu davam etmişdir. O, musiqi xəzinəsini zənginləşdirən və xalq arasında dillər əzbərinə çevrilən mahnı və romanslar bəstələmişdir.

T.Hacıyev müasir Azərbaycan şairlərinin bir çoxu ilə yaradıcılıq əməkdaşlığı etmişdir. Rəsul Rza, Nəbi Xəzri, Aslan Aslanov, Gəray Fəzli, Cabir Novruz, Rəfiq Zəka və digər şairlərin şeirlərinə gözəl mahnılar bəstələmişdir. Xüsusilə T.Hacıyev Fikrət Qoca və Baba Vəziroğlunun poeziyasına çox müraciət etmiş və onların şeirlərinə yaddaqalan mahnılar yazmışdır.

Ayrı-ayrı mahnılarla yanaşı, T.Hacıyev müxtəlif şairlərin sözlərinə mahnı silsilələri də bəstələmişdir. Bunlardan Fikrət Qocanın və Baba Vəziroğlunun sözlərinə "Gənclik mahnıları" silsiləsini (15 mahnı), Nəbi Xəzrinin sözlərinə 4 romansdan ibarət silsiləni, Fikrət Qocanın və Gəray Fəzlinin sözlərinə əmək qəhrəmanlarına həsr olunmuş romans silsiləsini, kosmonavtlara həsr olunmuş mahnılar silsiləsini və s. qeyd etmək olar.

T.Hacıyevin mahnıları bir sıra mükafatlar almışdır. Bu sırada 1972-ci ildə SSRİ-nin yaranmasının 50 illiyinə həsr olunmuş Azərbaycan Televiziyası və Radiosu nəzdində təşkil olunan "Dostluq mahnıları" mahnı müsabiqəsində Telman Hacıyevin Fikrət Qocanın sözlərinə "Üç qardaş" mahnısı birinci mükafata layiq görülmüşdür. Həmin müsabiqədə mükafatçılar sırasında Oqtay Zülfüqarovun, Azər Rzayevin, Əziz Əzizovun, Emin Sabitoğlunun mahnıları da olmuşdur.

Xüsusi olaraq, T.Hacıyev mahnılarının ifaçılarını da qeyd etmək lazımdır. Bəstəkar öz dövrünün ən məşhur və istedadlı müğənniləri: Zeynəb Xanlarova və Rəşid Behbudov, Yaşar Səfərov və Elmira Rəhimova, Nisə

Qasımova və Yalçın Rzazadə, Anatollu Qəniyev və Hüseynağa Hadıyev, "Qaya" və "Sevil" vokal qrupları və b. ilə əməkdaşlıq etmişdir. T.Hacıyevin "Neft daşları" (söz. Aslan Aslanovun) mahnısının respublikanın xalq artisti Şövkət Ələkbərovanın ifasında böyük uğuru onun nəğməkar-bəstəkar kimi formalaşmasını şərtləndirdi. Xüsusilə bəstəkarın "Lalələr" (söz. Aslan Aslanovundur) mahnısı görkəmli müğənni Rəşid Behbudovun repertuarında dünyanı dolaşmışdır, "Tələbəlik illəri" (söz. Cabir Novruzundur), "Gəncəm" (söz. Rəsul Rza) mahnıları tanınmış müğənni Elmira Rəhimovanın ifasında çox məşhurlaşmışdır.

T.Hacıyev iki yüzdən artıq mahnının müəllifidir. Mahnı janrına tez-tez müraciət etməsi faktının özü bəstəkarın geniş kütləyə yaxınlığının təsdiqidir. Eyni zamanda, bir çox mahnılar bəstəkar tərəfindən mahnı janrının nəzərə çarpacaq dərəcədə fərqləndirildiyini, ona psixoloji məna verildiyini göstərir. T.Hacıyevin mahnıları yarandığı dövrdən bu günə kimi çox məşhurlaşaraq, yaddaşlara həkk olunmuşdur.

1960-cı illərin sonu, 1970-ci illərin əvvəllərində T.Hacıyev musiqili-səhnə janrlarına müraciət etmiş və bir-birinin ardınca üç musiqili komediya – "Bizə bir xal lazımdır", "Mənim sevimli vəhşim", "Qayınana" musiqili komediyalarını bəstələmişdir. Həmin əsərlər yarandığı dövrdə müxtəlif səhnələrdə tamaşaya qoyulmuş və böyük müvəffəqiyyət qazanmışdır.

T.Hacıyevin "Bizə bir xal lazımdır" musiqili komediyası Azərbaycan Dövlət Musiqili Komediya Teatrında 1967-ci ildə tamaşaya qoyulmuşdur. "Bizə bir xal lazımdır" musiqili komediyasının libretto müəllifləri görkəmli aktyor Bəşir Səfəroğlu və ədib Qulamrza Cəmşidindir. Onların yaratdıqları həyati, komik, səmimi və incə yumorlu libretto Telman Hacıyevin musiqisi ilə vəhdət təşkil etmişdir. "Bizə bir xal lazımdır" musiqili komediyası insanların həyatından, əməyindən və idmana olan maraq və sevgisindən bəhs edən canlı, məzəli ifadə tərzinə malik əsərdir. Əsərdəki hadisələr Sumqayıtda baş verir və əsərin qəhrəmanları bu şəhərdə yaşayan, çalışan zəhmətkeş və həyatsevər insanlardır. Maraqlıdır ki, əsərin məzmunundan irəli gələrək, teatrın kollektivi ilk tamaşanı Sumqayıt şəhərində göstərməyi qərara almışdır.

Əsərin premyerası Sumqayıtda Səməd Vurğun adına Mədəniyyət sarayında 19 sentyabr 1967-ci ildə baş tutmuşdur. Sonradan "Bizə bir xal lazımdır" Bakı səhnəsində də nümayiş olunmuş və uzun müddət teatrın repertuarından düşməmişdir. "Bizə bir xal lazımdır" musiqili komediyasının ilk tamaşasının quruluşçu rejissorları Şəmsi Bədəlbəyli və Niyaz Şərifov, rəssamı Böyükağa Mirzəzadə, dirijoru Kamal Abbasov olmuşdur. Tamaşada teatrın aparıcı aktyorları - Bəşir Səfəroğlu, Əzizağa Qasımov, Nəcibə

Behbudova, Mobil Əhmədov və başqaları olduqca maraqlı və yaddaqalan obrazlar yaratmışlar.

Bütün bunlar musiqili komediyanın səhnədə baxımlı olmasına və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmasına imkan vermişdir. Tamaşanın çəkilişi olmasa da, onun bəzi səhnələrinin lent yazıları qalmışdır. Qeyd edək ki, 1969-cu ildə, rejissor Rauf Kazımovski tərəfindən Azərbaycan Televiziya Studiyasında çəkilən "Bəşir Səfəroğlu" filminə "Bizə bir xal lazımdır" musiqi komediyasından bir epizod daxil edilmişdir. Bəşir Səfəroğlu, Əzizağa Qasımov və Nəcibə Behbudovanın ifasında filmdə nümayiş olunan bu parça böyük maraq doğurur. Təsadüfi deyil ki, aktyorların bu səhnədəki dialoqları dillər əzbərinə çevrilmişdir.

T.Hacıyevin ikinci musiqili-səhnə əsəri – "Mənim sevimli vəhşim" müzikli görkəmli ispan şairi və dramaturqu Aleksandr Kasonun "Üçüncü söz" əsəri əsasında yazılmışdır. Kasonun yaradıcılığının əsas mövzusunu ədalətə, yaxşılığa, səadətə çağırış motivləri təşkil edir, O, istismara qarşı çıxaraq, insanlara sevgi aşılayır. "Mənim sevimli vəhşim" müziklinin libretto müəllifləri – Rəfiq Zəka və Mark Klarisov olduqca maraqlı, dramaturji inkişaf xəttinə malik süjet yaratmışlar.

Müziklin musiqisi parlaq obrazlılığı, ifadəli musiqi dili, uğurlu orkestr tərtibatı ilə fərqlənir. Dramaturgiyada əsərin baş qəhrəmanları Pablo və Marginin məhəbbəti inandırıcı surətdə açılır. Bəstəkar təbiət təsvirlərində orkestrin ifadəli imkanlarından bacarıqla istifadə etmişdir. Həmçinin əsərin musiqisində obrazların səciyyələndirilməsində müasir musiqinin intonasiya və ritmik xüsusiyyətlərinə müraciət maraqlı nəticələr vermişdir.

T.Hacıyevin üçüncü musiqili-səhnə əsəri – "Qayınana" musiqili komediyası Məcid Şamxalovun əsəri əsasında yazılmış və gürcü dilində Q.Eristavi adına Qori Dövlət Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Xatırlatmaq istərdik ki, tanınmış Azərbaycan dramaturqu Məcid Şamxalovun "Qayınana" komediyası 1960-70-ci illərdə çox məşhur əsərlərdən biri idi. Azərbaycan bəstəkarlarının da diqqətini cəlb edən bu əsər əsasında tamaşa və film yaranmışdı.

1965-ci ildə Zakir Bağırovun "Qayınana" musiqili komediyası Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsində böyük uğur qazanmış və uzun illər boyu repertuarda qalmış, bir neçə dəfə yeni quruluşda tamaşaya qoyulmuşdur. "Qayınana" tamaşası, xüsusilə, görkəmli aktrisa, xalq artisti Nəsibə Zeynalovanın yaratdığı qayınana Cənnət xala obrazı Azərbaycan teatr tarixinə şedevr kimi daxil olmuşdur. Tamaşanın quruluş-

larında aktyor ansamblı dəyişsə də, Nəsibə Zeynalova qayınana rolunun əvəzolunmaz ifaçısı kimi yadda qalmışdır.

Teatr tamaşasının məşhurluq qazanması kino xadimlərinin də diqqətini cəlb etmiş və eyniadlı filmin meydana gəlməsinə səbəb olmuşdur. 1978-ci ildə Məcid Şamxalovun əsəri əsasında çəkilən "Qayınana" filminin quruluşçu rejissoru Hüseyn Seyidzadə, ssenari müəllifi Əjdər İbrahimov və Marqarita Maleyeva, operatoru Fikrət Əsədov, bəstəkarı Tofiq Quliyevdir. Baş rolu Nəsibə Zeynalova ifa etmiş, digər rollarda Fuad Poladov, İlham Namiq Kamal, İnara Quliyeva və b. aktyorlar çəkilmişlər. Filmin ekran həyatı çox uğurlu olmuş və keçmiş sovet məkanında ən çox bəyənilən filmlərdən birinə çevrilmişdir.

Maraqlıdır ki, 1970-ci illərdə Məcid Şamxalovun "Qayınana" komediyası digər respublikalarda teatr xadimlərinin də diqqətini cəlb etmişdir. Z.Bağırovun M.Şamxalovun əsəri əsasında yazdığı "Qayınana" musiqili komediyası Orta Asiya respublikalarında və Bolqarıstanda müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Lakin Gürcüstanın Qori Dövlət Teatrı M.Şamxalovun əsəri əsasında yeni bir musiqili komediyanın yazılması məqsədilə bəstəkar Telman Hacıyevə müraciət etmiş və eyni mövzuda yeni əsər yaradılmasını sifariş vermişdir. Qori Dövlət Teatrında həmin əsərin tamaşaya qoyulması həm məşhur süjetə yeni baxış yaratmış, həm də bəstəkarın teatrla sıx yaradıcılıq birliyindən meydana gələn əsərin tamaşaçı dairəsini genişləndirmişdir. Bu tamaşa haqqında məlumat gürcü mətbuatında geniş işıqlandırılsa da, təəssüf ki, Azərbaycan mətbuatında bu haqda məlumata rast gəlmirik. Bununla belə, artıq T.Hacıyevin məşhur əsərə müraciət edərək, eyniadlı əsər yaratması faktı onun cəsarətindən və sənət meyarlarına inamından xəbər verir.

Ümumiyyətlə, T.Hacıyevin musiqili komediyalarında şəhər həyatı, orada baş verən hadisələr öz əksini tapır. Bəstəkar sadə əmək adamlarının həyatını çox yığcam, həm də parlaq bir dillə təsvir edir. T.Hacıyev musiqili-səhnə əsərlərində bir romantik ovqat, daxili aləmlə emosional ruh yüksəkliyi yarada bilmişdir.

T.Hacıyev bir sıra teatr tamaşaları üçün yazılmış musiqinin müəllifidir. Onun Gənc Tamaşaçılar Teatrı üçün "Dan ulduzu", Gəncə Dram Teatrı üçün "Şəfiqə" və s. tamaşalara yazdığı musiqi vaxtilə çox məşhur idi və bu tamaşaların üzün müddət teatrların səhnəsində qalmasında musiqinin də böyük rolu olmuşdur.

T.Hacıyev bir sıra kinofilmlərə də musiqi yazmışdır. Onlardan "Nizaminin vətənində" (1966, rejissor Gavə Həsənov), "Naxçıvan" (1967, rejissor Nazim Abbas), "Çiçəklənən Abşeron" (1967, "Azərbaycanfilm", rejis-

sor Nina Mustafayeva), "Bizim universitet" (1969, rejissor Arif Qazıyev) sənədli filmləri diqqətəlayiqdir. Bu filmlərdə Vətənin gözəlliklərinin, insanların nailiyyətlərinin tərənnümü əsas yer tutur. Bədii filmlərdən fərqli olaraq, sənədli filmlərdə musiqi adətən müşayiətçi, tətbiqi əhəmiyyət daşısa da, T.Hacıyev bu çərçivəni genişləndirərək, filmlərə parlaq, orijinal musiqi bəstələmişdir. Xüsusilə T.Hacıyevin kinofilmlərə yazdığı mahnılar müstəqil olaraq, müğənnilərin repertuarına daxil olmuş və xalq arasında çox sevilmişdir. "Nizaminin vətənində" filmindən "Gəncə", "Çiçəklənən Abşeron" filmindən "Abşeronun nəğməsi", "Bizim universitet" filmindən "Tələbəlik illəri" mahnıları bu qəbildəndir.

Telman Hacıyev yaradıcılığının çiçəkləndiyi bir dövrdə, 1991-ci il yanvarın 6-da dünyasını dəyişmişdir. T.Hacıyevin Azərbaycan musiqisinin inkişafı naminə xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycanın əməkdar incəsənət xadimi fəxri adına (1990), bir sıra mükafatlara və diplomlara layiq görülmüşdür.

**1.2. "T.Hacıyevin əsərlərinin mövzu dairəsi və janr xüsusiyyətləri"** adlanır. T.Hacıyevin yaradıcılığını, əsərlərinin mövzu dairəsini və janr xüsusiyyətlərini xarakterizə edərkən, ilk növbədə, mövzu baxımından bir neçə böyük şaxəni göstərmək olar. Hər bir şaxə özlüyündə rəngarəng səpkili əsərlərlə təmsil olunur.

T.Hacıyevin yaratdığı bütün əsərlərdə Vətən və Məhəbbət mövzusu qovuşur. Bəstəkar üçün Vətən gözəlliklər məskənidir, Vətən ilk öncə, onun torpağı üstündə fəxrlə gəzən insanların tarixi, mədəniyyəti, ədəbiyyatı, musiqisi, müqəddəs dünyası, zəngin mənəviyyatıdır. Eyni zamanda, Vətən – insanlara, həyata, əməyə məhəbbətin qaynağıdır. Bu baxımdan T.Hacıyevin yaradıcılığında rəngarəng janrlarda bu mövzular öz əksini tapır. Bəstəkarın müxtəlif janrlarda yazdığı əsərlərdə milli xalq musiqisinin xüsusiyyətlərindən istifadə klassik janr və formalarla qovuşaraq, bəstəkarın musiqi üslubunun səciyyəvi cəhətinə çevrilir. İlk növbədə, T.Hacıyevin yaradıcılığının aparıcı sahəsi olan vokal musiqiyə – mahnı və romanslara müraciət edək, çünki bu sahə bəstəkarın yaradıcılığında həm çoxsaylı nümunələrlə, həm geniş mövzu dairəsilə, həm də onun digər yaradıcılıq sahələrinə təsir edən üslub xüsusiyyətləri ilə təmsil olunmuşdur.

1960-70-ci illərdə Azərbaycan bəstəkarlarının yazdıqları çoxsaylı vokal əsərlərin xalq musiqi mənbələrinə yaxınlığı ilə yanaşı, mahnı və romans janrı yeni məzmun və xarakter kəsb etmişdir. Vokal musiqi sahəsində ənənələrin inkişaf etdirilməsi onların xalq kütlələri tərəfindən qavranılma səviyyəsinə, musi-

qi şüuruna da təsir göstərərək, xalqın bədii zövqünü yüksəldir ki, bu da bəstəkar mahnılarına münasibətin formalaşmasında meyar rolunu oynayır.

Azərbaycan musiqisində T.Hacıyev mahnı və romans janrının mahir ustası kimi tanınaraq, özünəməxsus dəst-xətti, fitri istedadı ilə xüsusi olaraq diqqəti cəlb etmişdir. T.Hacıyevin yaradıcılığının aparıcı mövzusu bəstəkarın müasirləri olan əmək adamları, insanların daxili aləmidir. Telman Hacıyevin lirik mahnıları daha çox populyarlıq qazanmışdır. Bununla yanaşı, onun yaradıcılığında lirik məişət epizodlarını, təbiət mənzərələrini əks etdirən vokal musiqi səhifələri də az deyil.

T.Hacıyevin yaradıcılığında mahnı janrında bəstələdiyi əsərlər mövzu müxtəlifliyi ilə fərqlənir. Bəstəkarın mahnılarını mövzusuna görə bir neçə yerə bölmək olar: Vətən haqqında mahnılar, xalqlar dostluğunu tərənnüm edən mahnılar, əmək mahnıları, gəncliyə həsr olunmuş mahnılar, lirik məhəbbət mahnıları, uşaq mahnıları. Bu qruplar üzrə mahnıların mövzu dairəsini xarakterizə edək. Vətənə, doğma diyarın gözəlliklərinə həsr olunan mahnılar bəstəkarın yaradıcılığında xüsusi yer tutur: "Gəncəm" (söz. Rəsul Rzanın), "Göygöl" (söz. Rəfiq Zəkanın), "Kür boyunda" (söz. Fəray Fəzlinin), "Lalələr" (söz. A.Aslanovun), "Gözəl dünya" (söz. Baba Vəziroğlunun), "Abşeronun nəğməsi" (söz. Nəbi Xəzrinin), "Xəzər" (söz. Yusif Həsənbəyin), "Ellər gözəli" (söz. Fikrət Qocanın) və s. Bu mahnılarda doğma Azərbaycanın dilbər guşələrinin təbiəti, sərvətləri tərənnüm edilir. Bütün bu mahnılar oynaq, şux xarakterdədir. Vətənə həsr olunmuş mahnılarda bəstəkarın öz vətəninə bəslədiyi dərin məhəbbət hissləri özünü büruzə verməklə yanaşı, onun vətənpərvərlik hissləri, vətən torpağının gözəlliyi əks olunur, eyni zamanda, vətən tarixi, milli-mənəvi dəyərlər tərənnüm edilir.

Bəstəkarın Gəncə şəhərinə həsr etdiyi məşhur mahnısı onun vətəndaşlıq mövqeyini nümayiş etdirən bir əsərdir. Belə ki, sovet dövründə bu şəhərin "Kirovabad" adlandırıldığı və "Gəncə" adının yasaq olunduğu bir zamanda bəstəkar şəhərin qədim tarixi adını canlandıran mahnı bəstələmişdir. Şair Rəsul Rza poetik mətndə Gəncə torpağının gözəlliyini, təbiətin bəxş etdiyi nemətləri, Göy gölün şəfalı ab-havasını çox sadə və səmimi sözlərlə tərənnüm etmişdir. Bəstəkar Telman Hacıyev də bunu davam etdirərək, qəlboxşayan, şən, coşqun əhval-ruhiyyəli musiqi yaradaraq, daxilən hiss etdiyi vətən təəssübkeşliyini pafosdan uzaq bir tərzdə ifadə etməyə nail olmuşdur. Bu baxımdan sovet ideologiyasının hökm sürdüyü bir dövrdə "Gəncə" adlı mahnının səslənməsi məhz öz səmimiyyəti ilə qəlbləri ovsunlamışdır. Digər tərəfdən, demək olar ki, bu mahnı ilə bəstəkar və şair tarixi haqsızlığa öz etirazını gizli, pərdələnmiş şəkildə bildirmiş, həmçinin

xalqın qəlbində yaşayan bir etirazı ifadə edə bilmişlər. Əlamətdardır ki, 1989-cu il dekabrın 30-da Gəncə şəhərinin tarixi adı bərpa olunmuşdur. Şəhərə tarixi adının qaytarılmasında Telman Hacıyev və Rəsul Rzanın yaratdıqları bu mahnının da öz payı vardır.

Gəncənin gözəlliklərinə həsr olunmuş nümunələrdən biri də bəstəkarın məşhur "Lalələr" mahnısıdır. Mahnının sözləri Aslan Aslanovundur. Burada poetik mətn lalə gülünün tərifi ilə bağlı olsa da, mərkəzdə yenə də Gəncə torpağı, onun dillər əzbəri olan guşələri – Maral gölün, Göy gölün adı səslənir ki, bu da vətənin gözəlliklərinin tərənnümünü önə çəkir.

Telman Hacıyevin Nəbi Xəzrinin sözlərinə yazdığı "Abşeronun nəğməsi" mahnısının musiqisi Xəzərin obrazını yaradır. Mahnının vals ritminə muğam intonasiyaları təbii şəkildə daxil olur, musiqiyə improvizasiya xarakterli səslənmə gətirir.

T.Hacıyevin mahnı yaradıcılığında vacib mövzulardan biri xalqlar dostluğunu tərənnüm edən mahnılar təşkil edir. Onlardan "Rus xalqına eşq olsun" (söz.Rəsul Rzanın), "Bakı-Praqa" (söz.Nəbi Xəzrinin), "Üç qardaş" (söz.Fikrət Qocanın), "Tbilisi" (söz. Süleyman Rüstəmin) mahnılarının adını çəkmək olar. Bu kimi mahnılarda Azərbaycanın digər ölkələrlə qardaşlıq əlaqələrindən danışılır, eyni zamanda, Vətənimizin tərənnümü ön planda durur ki, bunları da Vətən haqqında mahnılarla əlaqələndirmək olar.

T.Hacıyevin yaradıcılığının aparıcı mövzularından biri bəstəkarın müasirləri olan əmək adamları, insanların daxili aləmidir. Əmək mahnılarının məzmun dairəsi çox genişdir. Burada neftçilər, kosmonavtlar və s. əmək insanları tərənnüm olunur. Bu mövzuda olan mahnılar da onun yaradıcılığında gözəl məişət epizodlarını, təbiət mənzərələrini əks etdirən musiqi səhifələri ilə əlaqələndirilir. Əmək mahnıları sırasına "Neft daşları", "Xəzərin neftçiləri", "Müəllim ömrü", "Baykal-Amur qovuşur", "Sayalı", "Pənah" və s. aid etmək olar.

Gəncliyə həsr edilmiş nəğmələr gənclərin hiss və duyğularını, əməksevərliyini, mərdliyini, vətənpərvərliyini tərənnüm edir: "Tələbəlik illəri", "Tələbənin əməyi", "Gəlin, dostlar" və s. Xüsusilə Cabir Novruzun sözlərinə bəstələnmiş "Tələbəlik illəri" mahnısı, demək olar ki, ölkəmizin tələbə-gənclərinin bir himninə çevrilmişdir. Bu mahnı tələbələrin tədbirlərində, təhsil aldıqları təhsil ocaqlarındakı görüşlərində mütəmadi səslənir və insanların ürəyində çox kövrək xatirələr canlandırır.

T.Hacıyevin musiqi yaradıcılığında xüsusi bir xətt məhəbbət mövzusu ilə bağlı olub, müxtəlif cəhətlərdən təzahür edir: doğma insanlara sevgisi, həyat sevgisi və ən dərin lirik hisslərin təcəssümü və s. Məhəbbət lirikasını əks

etdirən mahnı və romanslarda gənclik məhəbbəti, sevgi xatirələri, nostalji hissləri özünü aydın büruzə verir. Lirik məhəbbət mövzusu – "Gəl barışaq", "Gözləyən var məni", "Xalidə", "Məzəli mahnı" (söz. F.Qocanın), "Gözəl dünya", "Sənin üçün" (söz. B.Vəziroğlunun), "Könlümün yadigarı" (söz. R.Zəkanın), "Xatirə" (söz. G.Fəzlinin), "Ürəyini oxuyuram" (söz. B.Vəziroğlunun) və s. mahnılarında təcəssüm edilir. T.Hacıyevin lirik-oynaq mahnılarından olan "Qonşular" duet-mahnısı çox populyardır (söz. Q.Qasımzadənin). Lirik xarakterli bu mahnı dostluq və sevgi haqqındadır.

T.Hacıyevin vokal yaradıcılığında romans janrı da əhəmiyyətli yer tutur. Klassik şairlərin qəzəllərinə yazdığı romanslarla yanaşı, o, həmçinin müasir dövrün şairlərinin sözlərinə də müxtəlif məzmunlu romanslar bəstələmişdir. T.Hacıyevin "Unutmamışam" romansı (söz. Rəsul Rzanındır) şairin psixoloji lirikasını musiqidə uğurla tərənnüm edir. Bəstəkarın ariozo üslubuna meyil etməsi özünü monoloq şəkilli ifadə tərzində göstərir. Bəstəkarın Nəbi Xəzrinin sözlərinə yazdığı "Soyuq gözəllik" romansı da bu qəbildən olan əsərlərindəndir.

T.Hacıyevin lirik mahnı və romanslarının məzmununda Azərbaycan mahnı yaradıcılığına xas olan lirik, oynaq çalarlar öz əksini tapmışdır. Bəstəkarın mahnı və romansları Azərbaycan vokal musiqisinin ənənələri və bəstəkarın fərdi yaradıcılıq üslubunun sintezi ilə səciyyələnir.

T.Hacıyevin yaradıcılığında diqqəti cəlb edən əsas mövzulardan biri də uşaq tematikasına müraciət, uşaq dünyasının tərənnümü və uşaqlar üçün yazılmış əsərlərlə bağlıdır. Bəstəkarın uşaq mahnılarının mövzusu çox rəngarəngdir. Onlardan ölkənin əmək həyatı ilə bağlı olan "Balaca neftçi" (söz. Rəfiq Zəkanın), təbiətə sevgi aşılayan "Üzüm bağında" və "Yaşıl meşə" (söz. Mir Mehdi Seyidzadənin), uşaqların həyatını əks etdirən "Qaç-gizlən" (söz. M.Seyidzadənin), "Mənə balaca deməyin" (söz. R.Zəkanın) və s. mahnıları göstərmək olar. Bütün bu mahnılar mövzu ifadəliliyi ilə seçilir. Burada uşaqların qəhrəman olmaq arzusu, həyatsevərliyi, təbiətə münasibəti, oyunlara marağı ifadə olunur. Bəstəkarın uşaq mahnıları canlı və konkret obrazlı keyfiyyətlərə malik olan özünəməxsus, yaddaqalan intonasiyaları ilə fərqlənir.

T.Hacıyevin kamera-instrumental musiqi əsərlərinin məzmunu, əsasən, gənclik mövzusu ilə bağlıdır. Gənclik arzuları, gənclərin həyatsevərliyi, geniş təxəyyülü, vətənpərvərlik ruhu, xalqın milli-mənəvi sərvətlərinə hörməti bəstəkarın müxtəlif janrlı əsərlərində öz təcəssümünü tapmışdır.

T.Hacıyev musiqili komediyalarında vətənə məhəbbət, insanların əməyinə hörmət hisslərini önə çəkərək, cəmiyyətdəki iradəsiz, tüfeyli insanları komik vəziyyətlərdə təsvir etmiş, onları gülüşlə tənqid etmişdir.

Beləliklə, T.Hacıyevin əsərlərinin mövzu, janr və üslub xüsusiyyətlərindən danışarkən qeyd etməliyik ki, onun əsərlərinin tematizmi xalq yaradıcılığının müxtəlif təbəqələrinə - ilk növbədə, mahnı, rəqs, muğam, aşıq yaradıcılığına əsaslanmasının təbii nəticəsi kimi meydana çıxır. Bəstəkarın yaradıcılıq üslubunun fərdiliyinin vacib tərkib hissəsini onun musiqi dilinin milli səciyyəsi təşkil edir.

Dissertasiyanın **II fəsli "T.Hacıyevin əsərlərində musiqi dilinin xüsusiyyətləri"** adlanır, iki yarımfəsildən ibarətdir. **2.1. "T.Hacıyevin kamera-instrumental əsərləri"** təhlil olunur. T.Hacıyevin kamera-instrumental əsərləri onun yaradıcılıq irsində mühüm yer tutur. T.Hacıyevin kamera-instrumental musiqi sahəsində yaratdığı hər bir əsəri onun yaradıcılıq üslubuna öz təsirini buraxmış, milli və klassik musiqi qanunauyğunluqlarının qovuşdurulmasında əhəmiyyətli addım olmuşdur. T.Hacıyevin əsərlərini araşdırarkən, onların musiqi dilində milli musiqi intonasiyaları və məqam əsasının, melodiya və harmoniyanın vəhdətinin qeyd etməliyik.

T.Hacıyevin fortepiano üçün beş prelüdiyasının musiqi dilində milli musiqi intonasiyaları, melodik və metroritmik xüsusiyyətləri özünü qabarıq göstərir. Melodikanın quruluşu, mövzunun inkişaf etdirilməsi məqamın dayaq pillələri ətrafında gəzişmələrdən, motiv özəklərinin təkrarlanmasından və sekvensiyalı inkişafdan ibarətdir ki, bütün bunların kökü muğam melodiyaları, xalq musiqisinin ənənəvi cəhətləri ilə bağlıdır.

T.Hacıyevin fortepiano üçün Sonatinası romantik xarakterlidir, ənənəvi klassik sonata formasında bəstələnmişdir, üç hissədən ibarətdir. Sonatina ənənəvi forma quruluşu çərçivəsində bəstəkarın musiqi dilinin milli xüsusiyyətləri özünü aydın göstərir. Əsərin birinci hissəsində melodiyanın başlanğıc kvarta intonasiyası və bu səs ətrafında gəzişmə, frazanın fiqurasiyalı müşayiət fonunda əsas məqam-tonallığın dayaq pillələrinin göstərilməsi bu qəbildəndir. Əsas mövzu *Fa-majora* əsaslanır, eyni zamanda, mövzuda "fa" mayəli rast məqamının intonasiya xüsusiyyətləri özünü əyani surətdə göstərir. İkinci hissədə də muğam intonasiyaları, re" mayəli şur məqamına istinad, Azərbaycan xalq musiqisinə xas olan cəhətlər - basda dayaq pillənin ostinato saxlanılması, fakturanı dolğunlaşdıran paralel kvintalar, melodik xəttin variasiyalı inkişaf prinsipi və s. bu kimi cəhətlər özünü aydın göstərir.

T.Hacıyevin "Skripka və fortepiano üçün poema"sı musiqi dilinin məqam-intonasiya, harmonik zənginliyi ilə seçilir. Muğam intonasiyaları, dəqiq struktur, məntiqli dramaturgiya poemanın səciyyəvi cəhətlərindəndir.

Telman Hacıyevin yazı üslubunun əsas cəhətləri onun kvartetlərində özünü qabarıq göstərir. Bəstəkarın birinci simli kvartetinin (b-mol) musiqi-

sində dərin lirikanın üstünlüyü, musiqi fikrinin muğamın inkişaf prinsipinə əsaslanan epik təhkiyə tonu aydın seçilir. T.Hacıyevin 2 saylı simli kvartetində obrazların ziddiyyəti, musiqi dilinin simfonikləşdirilməsi kimi cəhətlər aydın görünür. Kvartetlərin musiqi materiallarında bilavasitə xalq musiqi qanunauyğunluqlarından bəhrələnmə diqqətəlayiqdir.

Bəstəkarın skripka, violonçel və fortepiano üçün triosunda bəstəkar xalq mahnılarının xüsusiyyətləri ilə muğam improvizasiyasının təbii sintezinə nail olur. Variantlılıq Azərbaycan xalq musiqisinə xas olan inkişaf prinsipi kimi bəstəkar tərəfindən geniş istifadə olunur.

Bəstəkarın "Fortepiano və orkestr üçün poeması"nda orkestrovka, tembr dramaturgiyası, musiqi forması kimi məsələlər öz uğurlu həllini tapır.

T.Hacıyevin yaradıcılığında kamera orkestri üçün "Andante və Skertso" da maraqlı əsərlərdən biridir. "Andante və Skertso" bir-birilə bağlı və ardıcıl ifa olunan iki hissədən ibarət əsərdir. Bu hissələrin quruluşu klassik formalara əsaslanır, bununla belə, kompozisiya daxilində, mövzuların quruluşunda muğamın inkişaf xüsusiyyətlərinə xas olan cəhətlər özünü göstərir. Mövzuların bir özəkdən yetişməsi, melodik, ritmik, struktur, faktura, orkestr yazısı və s. cəhətlərdən variantlı-variasiyalı dəyişilmələrə uğraması, bunun nəticəsində əmələ gələn mərhələlərlə dalğavarı inkişaf qeyd olunmalıdır. Mövzuların strukturunda da xromatik səs sırasına əsaslanan muğamvari, improvizasiyalı gəzişmələr üstünlük təşkil edir ki, bu da bəstəkarın musiqi üslubunda müasir yazı üsullarının muğam təfəkkürü ilə uzlaşdırılmasından irəli gəlir.

**2.2. "T.Hacıyevin "Bizə bir xal lazımdır" musiqili komediyası"** təhlil olunur. T.Hacıyevin musiqili komediyaları özünəməxsusluğu ilə fərqlənir. Bu da bəstəkarın zamanın nəbzini tuta bilməsindən, janrın tələblərini dərindən dərk etməsindən irəli gəlir. T.Hacıyev operetta janrına xas olan formalardan məharətlə istifadə etmişdir. Belə ki, baş qəhrəmanların obrazları ariya, ariozo, romans kimi vokal musiqi janrları ilə xarakterizə olunur. Onların zəngin ifadəli boyalara və rəngarəng nüanslara malik melodiyaları əsərlərin emosional təsir gücünü artırır. Bundan əlavə, əsərlərdə ansambl, xor, rəqs səhnələrinə də çox yer verilir. Bütün bunlar əsərin maraqlı musiqi məzmununun açılmasında mühüm rol oynayır.

T.Hacıyevin "Bizə bir xal lazımdır" musiqili komediyasının əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, musiqi səhnə hadisələrini idarə edir, qəhrəmanların xarakterlərini açıqlayır, onların fərdi xüsusiyyətlərini parlaq surətdə təcəssüm etdirir. Bəstəkar burada əsas musiqi-səhnə forması kimi ariya, ariozodan istifadə edərək, geniş melodikliyə, reçitativ-deklamasiya xüsusiyyətlərinə, eyni zamanda, Azərbaycan xalq musiqisinin məqam -

intonasiya özümənəxsusluğuna əsaslanan yüksək bədii keyfiyyətli melodiya nümunələri yaratmışdır.

Musiqili komediyada məzəli hadisələr, komik vəziyyətlər, futbol səhnəsi, məhəbbət səhnələri çarpazlaşaraq, gözlərimiz qarşısında zəngin emosiyalı müasir bir əsəri canlandırır. Əsərin məzmununda üç xətt qovuşur: doğma şəhərin gözəllikləri, futbola məhəbbət, insanların bir-birinə səmimi münasibəti və sevgisi. Hadisələrin gedişatında qəhrəmanların - Laçınla Gümrahın, Nərgizlə Aslanın məhəbbət etiraflarının şahidi oluruq. Əsərdə komik obrazlar da vardır - Poladov, onun həyat yoldaşı Rəfiqə xanım, Səbrəli və b. Bunlar musiqili komediyada özünəməxsus musiqi dili ilə səciyyələndirilir. Əsərdə musiqi mühüm dramaturji rol oynayıb, hadisələrin gedişatına fəal yardım göstərir, qəhrəmanların xarakteristikasını dərinləşdirir.

"Bizə bir xal lazımdır" musiqili komediyasındakı hadisələrin məkanı ilə bağlı əlamətlər musiqi məzmununda öz əksini tapıb: əsərin əvvəlində və sonunda "Sumqayıt haqqında mahnı" xorun ifasında verilir, həmçinin, əsərin dramaturji inkişaf xəttində daha bir neçə dəfə xorların mövzusu orkestrdə keçir, eləcə də II pərdənin daxilində orkestrin ifasında "Sumqayıt haqqında mahnı" səslənir. Orkestr partiyasında da xorların mövzularından istifadə edilməsi, özünəməxsus leytmotiv əhəmiyyəti daşıyır. Bununla da Sumqayıt - əsərdə insanların həyatında və hadisələrin inkişafında əsas rol oynayan bir obraza çevrilir.

Musiqili komediyada daha bir mövzu leytmotiv səviyyəsində işlənmişdir ki, bu da futbolla bağlı olan hadisələri səciyyələndirən məşhur "Futbol marşı"dır. "Futbol marşı" əsərin mərkəzi səhnələrindən biri olan futbol səhnəsinin musiqi məzmununun əsasını təşkil edir, həmçinin bu mövzu orkestrdə bir sıra səhnələrdə səslənir, bununla bəstəkar futbolun insanların həyatındakı rolunu təcəssüm etdirir.

Bütün bunlarla yanaşı, "Bizə bir xalq lazımdır" musiqili komediyasında əsas aparıcı qüvvə məhəbbətdir. Əsərin qəhrəmanlarının münasibətində məhəbbət hissləri müxtəlif çalarlarla açılır - lirik, sevincli, kədərli, məzəli və s. Əsərin romantik, coşqun ruhlu baş qəhrəmanları - Gümrah və Laçının obrazları arasında sevgi hissləri, onların küsüb-barışmaları əsərin dramaturgiyasında məhəbbət xəttini inkişaf etdirir. Hər iki obraz bir sıra solo nömrələri və duetlərlə xarakterizə olunur. Gümrahın romansı, "Sevgi mahnısı", Laçının ariozosu, romansı bu qəbildəndir.

"Bizə bir xalq lazımdır" musiqili komediyasında Nərgiz, Aslan kimi obrazların timsalında da məhəbbət xəttinin inkişafını görürük. Lakin bu

obrazlar komik cizgillərlə verilir, onların sevgi münasibətlərində, məhəbbət etiraflarında da zarafatyana əhval-ruhiyyə özünü göstərir.

Musiqili komediyada komik obrazlar – zavod direktoru Poladov və onun arvadı Rəfiqə mahnı və kupletlərlə xarakterizə olunur. Əgər lirik qəhrəmanların musiqi partiyası ariozo-deklamasiyalı, geniş nəfəsli melodiyalara əsaslanırsa, komik surətlərin partiyasında reçitativ tipli melodik xətt üstünlük təşkil edir.

Beləliklə, "Bizə bir xal lazımdır" musiqili komediyası olduqca pozitiv ruhlu bir əsər kimi bəstəkar tərəfindən maraqlı musiqi dili ilə bəstələnmişdir. Əsərin librettosunun uğurlu musiqi həlli özünü dolğun surətdə büruzə verir. Bəstəkarın musiqisi şifahi ənənəli Azərbaycan musiqisinin və klassik qanunauyğunluqların fərdi işlənməsinə söykənən müəllif musiqisidir. Musiqili komediyanın məzmunu və musiqi dilinin xüsusiyyətləri bəstəkarın püxtələşmiş musiqi üslubunu nümayiş etdirir.

Dissertasiyanın **III fəsli "T.Hacıyevin mahnılarının musiqi dili"** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. **3.1. "T.Hacıyevin mahnılarının məqam əsası və harmonik xüsusiyyətləri"** məsələləri araşdırılmışdır. T.Hacıyevin mahnıları maraqlı məqam və harmonik xüsusiyyətlərinə görə diqqəti cəlb edir. T.Hacıyevin musiqi əsərlərində Azərbaycan məqamlarına istinad ən əsas cəhətlərdəndir. Bəstəkarın yaradıcılığı özünəməxsus milli ahəngliyi ilə seçilir. T.Hacıyevin mahnılarının təhlili onların musiqi dilinin məqam əsasının maraqlı xüsusiyyətlərini üzə çıxarır. Təhlilə cəlb olunmuş mahnılar rast, şur, segah, şüştər, bayatı-şiraz, çahargah məqamlarına əsaslanır.

Məsələn, "Abşeronun nəğməsi", "Gözəl dünya", "Sənin üçün" mahnılarında rast, "Gözləyən var məni" mahnısında şur, "Lalələr" mahnısında segah məqamlarından, eyni adlı muğam intonasiyalarından, muğamın quruluş xüsusiyyətlərindən də istifadə olunur. Lakin onun mahnılarında daha çox bayatı-şiraz məqamından istifadə olunmasını qeyd edə bilərik. "Xatirə", "Məzəli mahnı", "Xalidə", "Ürəyini oxuyuram", "Gəl barışaq" mahnıları bayatı-şiraz məqamına əsaslanır. Bəstəkar bir məqam daxilində onun funksional əsaslarından istifadə edərək, rəngarəng melodik və harmonik dilə malik əsərlər yarada bilmişdir.

T.Hacıyevin mahnılarının bir qismi iki məqama əsaslanır, məqamlararası keçidlər yönəlmə və modulyasiyalı quruluşda təzahür edir. "Neft daşları" mahnısının melodiyası mi mayəli çahargah məqamında qurulmuşdur və segah məqamına yönəlmə özünü göstərir. "Xəzər" mahnısı dəyişkən məqam əsasına malikdir. Burada rast və bayatı-şiraz məqamları arasında keçidlər verilir. "Kür boyunda" mahnısı iki məqama: bayatı-şiraz və

segah məqamlarına əsaslanır. “Ellər gözəli” mahnısı rast-şur məqamları üzərində modulyasiyalı quruluşa malikdir.

Bir çox mahnılarda məqam pillələrinin alterasiyasına təsadüf olunur ki, bu da bir məqamdan digərinə keçidlər əmələ gəlməsinə yol açır, həmçinin harmonik dilin zənginləşməsinə səbəb olur.

Təhlil etdiyimiz mahnılarda məqam əsasının harmonik funksional sistemlə uzlaşdırılması özünü qabarıq büruzə verir. Mahnılarda melodiya və müşayiət məqam və harmoniya əsasına görə sıx əlaqəli surətdə çıxış edir. Melodiyanın istinad pillələri harmonik funksiyalarla əlaqələndirilir. Mahnıların musiqi dilində məqamlar arasında keçidlər özünü göstərir, bunlar bəzən yönəlmələr, bəzən də modulyasiya səviyyəsində nəzərə çarpır.

Beləliklə, musiqi dilinin sadəliyi, forma aydınlığı bəstəkarın mahnılarının əsas xüsusiyyətləridir. Əsasən kuplet formasında qurulan mahnıların məqam əsası da aydındır. Burada major-minor sistemi ilə milli məqam təfəkkürünün ənənəvi sintezi maraqlı həllini tapmışdır. Mahnıların harmonuk dili çox qənaətcil və sadə funksional əlaqələrin istifadəsindən ibarətdir.

**3.2. “T.Hacıyevin mahnılarında melodik hərəkət formaları və quruluş xüsusiyyətləri”**nin təhlilinə həsr olunmuşdur. T.Hacıyevin mahnılarının melodikası zəngin və rəngarəngdir. Təhlil etdiyimiz mahnılarda melodikanın müxtəlif hərəkət formaları özünü göstərir: enən, yüksələn, dalğavarı, enən-yüksələn, yüksələn-enən melodik hərəkət tiplərinə rast gəlinir.

T.Hacıyevin mahnılarında ardıcıl pillələrlə enən melodik hərəkətə aid nümunələrin sayı çoxdur. Məsələn, pilləvarı enən hərəkətli melodiya “Neft daşları”, “Ellər gözəli” mahnısında özünü göstərir. Zirvə-mənbədən enən pilləvarı hərəkət növünə “Lalələr”, “Məzəli mahnı”, “Sənin üçün” mahnılarının melodiyası misal ola bilər. Enən hərəkətli melodiya növü bir çox hallarda sıçrayışlardan sonra özünü göstərir və həmin məsafədə səslərin pilləvarı enən hərəkətilə doldurulması üzə çıxır. “Ellər gözəli”, “Xatirə”, “Ürəyini oxuyuram”, “Gözəl dünya”, “Sənin üçün” mahnıları bu qəbildəndir.

Azərbaycan milli musiqisində istinad pillələri ətrafında melodik gəzişmə əhəmiyyətlidir. Melodikada gəzişmənin sadə quruluşu müəyyən istinad pilləsi, yəni, mayə və ya başqa mərkəzi ton ətrafında qonşu səslər vasitəsilə öz əksini tapır. “Neft daşları”, “Gözəl dünya” mahnıları buna misal ola bilər.

Nəzərdən keçirdiyimiz bir sıra mahnılarda melodik hərəkətin bir pillənin təkrarı üzərində qurulduğunu və bununla reçitativ xarakterli melodiyanın əmələ gəldiyini də qeyd etməliyik ki, istinad pilləsinin uzun müddətli təkrarlanmasından sonra həmin pillə ətrafında improvizasiya tipli

gəzişmə ilə kadans verilməsi muğam melodikasını xatırladır. “Xəzər”, “Xalidə” mahnılarında bu kimi hərəkət növünə rast gəlirik.

T.Hacıyevin mahnılarının melodik quruluşunda sıçrayışlardan çox istifadə olunur, xüsusilə kvarta, kvinta çışrayışları və sonrakı enən hərəkətdə intervalın doldurulması məqsədi daşıyan gəzişmələr bu qəbildəndir. “Könlümün yadigarı”, “Abşeron nəğməsi” mahnılarının melodiyası kvarta sıçrayışı ilə başlanır. Melodiyadakı başlanğıc kvarta sıçrayışı melodik inkişafda təkan nöqtəsi, eyni zamanda, tezis-intonasiya kimi çıxış edir. Mahnılarda oktava diapazonunda sıçrayışlara da təsadüf olunur. Bu kimi sıçrayışlar adətən mahnıların quruluşunda kupletdən nəqərata keçid zamanı və ya kodada özünü göstərir. Məsələn, “Xəzər”, “Ellər gözəli”, “Müəllim ömrü” mahnılarında bunu müşahidə edirik.

Milli musiqidə melodik düzümlərin bir neçə dəfə təkrarlanması çox xarakterikdir. T.Hacıyevin mahnılarının təhlili zamanı biz eynilə, variantlı, sekvensiyalı, sekvensiyalı-variantlı, ornamentli təkrar növlərinə təsadüf edirik.

Variantlı təkrarın sadə növü mahnıların musiqi quruluşu üçün çox səciyyəvidir. Bu melodik təkrar kiçik dəyişilmə ilə müşahidə olunur. “Neft daşları”, “Gözəl dünya”, “Ellər gözəli”, “Gözləyən var məni” mahnılarında melodiyada frazaların təkrarlanmalarına çox yer verilir. “Məzəli mahnı”da variantlı təkrarlanmada frazaların başlanğıc intonasiyasında dəyişiklik müşahidə olunur. Sekvensiyalı təkrar növünə aid nümunəni “Gözləyən var məni” mahnısında görmək olar. Sekvensiyalı-variantlı növə nümunə kimi “Xatirə” mahnısını qeyd edə bilərik.

Milli musiqidə sekvensiya böyük əhəmiyyət kəsb edir. T.Hacıyevin mahnılarında təhlil etdiyimiz nümunələr arasında xüsusilə enən hərəkətli sekvensiyalar çoxluq təşkil edir. Sekvensiyalı hərəkətə həm müxtəlif cəhətlərlə qarşılıqlı əlaqədə, həm də ayrıca götürülmüş halda rast gəlinir. Sekvensiyaya əsaslanan melodiyalar, ibarələr, motiv səciyyəli quruluşlar sübut edir ki, T.Hacıyevin mahnılarında milli xüsusiyyətlərin təzahürü çox zəngin və dolğundur.

T.Hacıyevin mahnılarında musiqi forması baxımından tədqiqata cəlb olunmuş mahnılar, əsasən, bənd-nəqərat, birkupletli, ikihissəli və üçhissəli formadadır, onların daxili struktur quruluşunda musiqi düzümlərinin eyni ilə və ya variantlı təkrarlarına əsaslanan period formasının müxtəlif şəkildə təzahürlərinə rast gəlirik. Məsələn, “Məzəli mahnı”nın bənd-nəqərat quruluşlu ümumi strukturunda üçhissəli formanın elementlərini müşahidə etmək olar. “Xalidə”, “Müəllim ömrü” mahnısının musiqi forması bənd-nəqərat quruluşuna əsaslanır. “Ürəyini oxuyuram” mahnısında bənd təkrar-

lanan kvadrat period formasındadır. “Gözəl dünya” mahnısında bənd iki təkrar quruluşlu cümlədən ibarətdir: birinci cümlə zildə, ikinci cümlə bir oktava aşağıda səslənir. Hər cümlənin sonunda təkrarlanan musiqi ibarəsi forma quruluşuna refren əlamətləri gətirir.

T.Hacıyevin mahnılarında fortepiano müşayiəti də əhəmiyyətli rol oynayır. Əksər hallarda müşayiət ritmik fon xüsusiyyətinə malik olsa da, bir çox hallarda emosional psixoloji obrazın yaranmasında əhəmiyyətli rol oynayır. T.Hacıyev mahnılarının fakturasını səsaltı və təzadlı polifoniya elementləri ilə zənginləşdirərək ayrı-ayrı səslərin fərdi xüsusiyyətlərini artırır.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir. Telman Hacıyevin yaradıcılığının tədqiqi, onun əsərlərinin musiqi dilinin araşdırılması və milli musiqi mənbələri ilə müqayisəli təhlilin aparılması bir sıra nəticələri ümumiləşdirməyə imkan verir.

T.Hacıyevin musiqisində milli xüsusiyyətlər çox parlaq, əyani şəkildə özünü büruzə verir.

T.Hacıyev xalq musiqisinin ümumi qanunauyğunluqlarını, məqam əsasını, harmonik və ritmik xüsusiyyətlərini professional musiqi qanunları ilə, milli bəstəkarlıq məktəbinin nailiyyətlərilə, müasir musiqinin texniki vasitələrilə qovuşdurur. T.Hacıyevin yaradıcılığında milli məqam-intonasiyalarının bəstəkarın yaradıcılıq məqsədlərinə tabe edilməsi nəticəsində yüksək səviyyəli əsərlər yaranmışdır. T.Hacıyev polifonik yazı üsullarını Azərbaycan xalq musiqisinin ümumi inkişaf prinsipləri, ritm və məqam-intonasiya xüsusiyyətləri ilə qovuşdurmağa cəhd göstərmişdir. O, öz əsərlərində Azərbaycan məqamlarının daha dərin qatlarına nüfuz etməyə çalışmışdır. Buna görə də onun əsərlərində məqam-intonasiyalarından istifadə üsulları yüksək peşəkarlıq səviyyəsindədir.

T.Hacıyevin əsərlərində Azərbaycan xalq musiqisindən, xüsusilə məqam-intonasiya və melodik inkişaf xüsusiyyətlərindən istifadə olunması bəstəkarın yaradıcılıq üslubunun mühüm tərkib hissəsinə çevrilmişdir.

Beləliklə, Azərbaycan xalq musiqisinin intonasiya xüsusiyyətlərindən istifadə bəstəkara milli musiqi obrazının yaradılmasına imkan verir. Bəstəkarın əsərlərinin forma yaradıcılığında ifadəli prinsiplərinin dramaturji funksiyası əhəmiyyətli cəhətlərdən biridir.

Milli musiqi ənənələrinə sədaqət, xalq musiqi dilinin özünəməxsusluğundan peşəkarlıqla istifadə etmək bacarığı T.Hacıyevin musiqi üslubunun əsas səciyyəvi cəhətlərindəndir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Bəstəkar Telman Hacıyevin həyat və yaradıcılıq yolu. // "Elmi Xəbərlər". Gəncə Dövlət Universiteti. Gəncə, 3/2015, s. 316-318
2. Görkəmli bəstəkar Telman Hacıyevin kamera-instrumental yaradıcılığına dair. // Harmony. Международный музыкальный культурологический журнал. Выпуск N15/2016 http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=654&s=1&iss=27
3. Telman Hacıyevin mahnı yaradıcılığının səciyyəvi cəhətləri. // "Musiqi dünyası" jurnalı, 4/69, Bakı, 2016, s. 55-57
4. Telman Hacıyevin həyat və yaradıcılıq yolunun mərhələləri. // Harmony. Международный музыкальный культурологический журнал. Выпуск N16/2017 http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=690&s=1&iss=26
5. T.Hacıyevin "Bizə bir xal lazımdır" musiqili komediyası. // Harmony. Международный музыкальный культурологический журнал. Выпуск N16/2017 http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=691&s=1&iss=28
6. Telman Hacıyevin mahnı yaradıcılığı - mövzu və üslub xüsusiyyətləri. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2017, s.173-176.
7. Telman Hacıyevin yaradıcılığının üslub xüsusiyyətlərinin tədqiqi məsələləri. // "Musiqi dünyası" jurnalı, 2/71, Bakı, 2017, s. 46-48
8. Национальные истоки музыкального стиля Тельмана Гаджиева. / Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы V Международной научно-практической конференции 18-19 мая 2017 года. С. 178-181
9. Изучение творческого стиля композитора Тельмана Гаджиева. //Поиск. Международный научный журнал-приложение Республики Казахстан, N3 (1) /2017, с. 66-69
10. Issues of use of the natıonal ladder system ın the creatıvıty of Azerbaycaıjanı composer Telman Hajıyev. // İnternational Scientific Journal Theoretical&Applied Science. // http://T-Science.org 27.09.2017. Year: 2017 Issue: 09; Volume: 53

**Нушаба Нариман гызы Сейфуллаева**

## «Творчество композитора Тельмана Гаджиева в контексте национальных традиций»
## РЕЗЮМЕ


Диссертация посвящена изучению творчества видного представителя Азербайджанской музыкальной культуры, яркого и самобытного композитора Тельмана Гаджиева. Анализируя музыкальное наследие Т.Гаджиева, автор раскрывает стилевые особенности композиторского письма и систематизирует их в контексте национальных и классических традиций, которые взаимо обогащают и дополняют друг-друга с учётом особенностей музыкальных произведений и различных жанров. Глубокое постижение интонационного строя фольклорных источников, и прежде всего народно-песенной традиции, ашыгского творчества, искусства мугама, с глубоко индивидуальным подходом к ним, становится ведущим фактором почвенности музыки Т.Гаджиева, характерной для всего его творчества.

Диссертация состоит из введения, 3-х глав, 6-ти разделов, заключения и библиографии.

**I глава – «Характеристика творчества композитора Тельмана Гаджиева»** - состоит из двх разделов: **1.1. – «Жизненный и творческий путь Т.Гаджиева»; 1.2. – «Тематика, жанровые и стилистические черты творчества Т.Гаджиева».**

**II глава** диссертации – **«Характерные черты музыкального языка инструментальных и сценических произведений Т.Гаджиева»** - состоит из двх разделов: **2.1. – «Камерно-инструментальные произведения Т.Гаджиева»; 2.2. – «Музыкальная комедия «Нам нужен одно очко» Т.Гаджиева».**

**III глава** диссертации – **«Исследование музыкального языка песен Т.Гаджиева»** - состоит из двх разделов: **3.1. – «Ладовая основа и гармонические особенности песен Т.Гаджиева»; 3.2. – «Особенности мелодики и формы песен Т.Гаджиева».**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Nushaba Nariman Seyfullayeva**

**"Creativity of the composer Telman Hajiyev in the context of national traditions"**

**SUMMARY**

The dissertation is devoted to the studying of the creativity of a prominent representative of Azerbaijan music culture, bright and original composer Telman Hajiyev. AnalysingT.Hajiyev's musical heritage, the author reveals the directions for research of creative style of the composer and systematizes them as national and classic styles which are closely interconnected, and also features of music products of different genres are considered. Deep comprehension of intonational folk sources, primarily folk-song tradition, ashig creativity, art of mugham with a deeply personal approach to it is the leading factor of T.Hajiyev's music, characteristic of her work.

The dissertation consists of introduction, 3 chapters, the conclusion and the bibliography.

The **I chapters - "Characteristics of the creativity of the composer Telman Hajiyev"** - consists of two sections: **1.1. - "Life and creative way of T.Hajiyev"; 1.2. - "Themes, genre and stylistic features of T.Hajiyev's creativity".**

The **II chapter** of the thesis - **"Characteristic features of the musical language of T. Hajiyev's instrumental and stage works"** - consists of two sections: **2.1. - "Chamber-instrumental works of T.Hajiyev"; 2.2. - "Musical comedy "We need one point" by T.Hajiyev."**

The **III chapter** of the dissertation - **"The study of the musical language of T. Hajiyev's songs"** - consists of two sections: **3.1. - "The basis and harmonic features of T.Hajiyev's songs"; 3.2. - "Features of melodies and forms of T.Hajiyev's songs".**

In **conclusion** is given inference and generalisations of musical analysis.

Çapa imzalanıb: 12.11.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

**На правах рукописи**

**НУШАБА НАРИМАН гызы СЕЙФУЛЛАЕВА**

# ТВОРЧЕСТВО КОМПОЗИТОРА ТЕЛЬМАНА ГАДЖИЕВА В КОНТЕКСТЕ НАЦИОНАЛЬНЫХ ТРАДИЦИЙ

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**Баку – 2018**